## QAYDALAR

1. Bu qaydalar "Eco Picture Diary 2014" (Eko Rəsm Gündəliyi 2014) milli uşaq ekoloji müsabiqəsinin (bundan sonra: Müsabiqə) keçirilməsi qaydalarını özündə əks etdirir.
2. Müsabiqə IDEA (Ətraf mühitin mühafizəsi üzrə beynəlxalq dialoq) İctimai Birliyi (bundan sonra: Təşkilatçı) tərəfindən YUNESKO-nun himayəsi altında Heydər Əliyev Mərkəzinin və Panasonic Marketinq MDB-nin (PMCIS) dəstəyi ilə 2014-cü il 15 - 25 sentyabr tarixlərində Bakı və Gəncə şəhərlərində həyata keçirilir. "Eco Picture Diary 2014" beynəlxalq müsabiqəsi YUNESKO-nun himayəsi altında Panasonic korporasiyası (Yaponiya) tərəfindən təşkil olunur.
3. Müsabiqənin məqsədləri:
    - təbiətə qarşı ehtiyatlı münasibətin formalaşdırılması və gənc nəsillər arasında ekoloji mədəniyyətin təbliği;
    - ekoloji problemlərin həlli istiqamətində uşaqlar arasında məsuliyyət hissinin formalaşdırılması və inkişaf etdirilməsi;
    - ətraf mühitin və insan sağlamlığının qorunması üzrə aktiv vətəndaş mövqeyinin formalaşdırılması;
    - gənc nəsillərin təbiətin qorunması ilə bağlı fəaliyyətə cəlb olunması;
    - canlılara (flora və fauna) qayğının gənc nəsillərdə inkişaf etdirilməsi.
4. Müsabiqədə aşağı (6-11 yaşlar arası) və orta (12-15 yaşlar arası) yaş qruplarını təmsil edən, Bakı və Gəncə ümumtəhsil məktəblərində təhsil alan istənilən şagird iştirak edə bilər.
5. Müsabiqədə iştirak etmək üçün iştirakçı Müsabiqə üçün hazırlanan xüsusi Eko Gündəliyi doldurmalıdır.
   Diqqət! Eko Gündəliklərin sayı məhduddur (5000 ədəd).
6. Eko Gündəliklər 2014-cü il 15-16 sentyabr tarixlərində Bakı və Gəncə şəhərlərinin müəllimləri vasitəsi ilə paylanacaq. Xüsusi tədbirlər haqqında məlumatlar Təşkilatçının (**www.ideacampaign.org**) veb səhifəsində yerləşdiriləcək.
7. Müsabiqənin iştirakçıları müstəqil şəkildə, valideynlərinin biri ilə, və ya müəllimi ilə birlikdə 3 günə bölünmüş Eko Gündəliyi "rəsm + EKO İDEYANIN qısa təsviri" formatında doldurmalıdırlar. Hər bir Müsabiqə iştirakçısına bir ədəd Eko Gündəlik verilir.
8. Müsabiqə iştirakçılarının Eko Gündəlikləri aşağıdakı mövzulara həsr oluna bilər:
    - səmərəli enerji istehlakı və qlobal istiləşmənin qarşısının alınması;
    - atmosferə buraxılan karbon qazı tullantılarının azaldılması;
    - su ehtiyatlarından effektiv istifadə, planetin su və meşə sərvətlərinin qorunması;
    - tullantılar və onların təkrar emalından səmərəli istifadə üsulları;
    - ictimaiyyətin diqqətini ətraf mühitə və onun qorunması problemlərinə yönəldən çağırışlar;
    - heyvanlara və bitkilərə qarşı diqqətli və qayğıkeş münasibətin formalaşdırılması;
    - gələcək nəsillər üçün ümumdünya mədəni irsin qorunması sahəsində fəaliyyətlər.
9. Müsabiqə iştirakçısı Eko Gündəliyi doldurmalı və 2014-cü il 24 sentyabr tarixindən gec olmamaq şərti ilə gündəliyi ona təqdim edən müəllimə təhvil verməli və ya 2014-cü il 25 sentyabr tarixindən gec olmamaq şərti ilə Təşkilatçının ünvanına (aşağıda göstərilmişdir) göndərməlidir.
10. Eko gündəlikləri təhvil alan müəllimlər bu haqda Təşkilatçıya **+(99412) 4976316** nömrəli telefon vasitəsi ilə xəbər verməlidirlər. Təşkilatçı öz növbəsində 2014-cü il 25 sentyabr tarixindən gec olmamaq şərti ilə Eko Gündəliklərin müəllimlərdən toplanmasını təmin etməlidir.
11. 2014-cü il 25 sentyabr tarixindən sonra Təskilatçıya təhvil verilən Eko Gündəliklər Müsabiqə üçün etibarsız hesab olunur.
12. Təşkilatçı və PMCIS təqdim edilmiş Eko Gündəliklər arasından ən yaxşı 20 (hər yaş qrupu üzrə 10) finalçını seçəcək və mükafatlandıracaq. Finalçılar arasında 1 iştirakçının Eko Gündəliyi milli müsabiqənin qalibi elan ediləcək.
13. EKO-İDEYANIN qiymətləndirmə meyarları:

- rəsmlərin müsabiqənin məqsədinə uyğun olmaları;
- EKO-İDEYANIN həyata keçirilməsinin reallığı;
- EKO-İDEYANIN orijinallığı və iştirakçıların yaradıcılıq keyfiyyətinin səviyyəsi.

Eko Gündəliklər Təşkilatçı, YUNESKO, Heydər Əliyev Mərkəzi, PMCIS, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, KİV və QHT nümayəndələri də daxil olmaqla xüsusi münsiflər heyəti tərəfindən qiymətləndiriləcək.

14. Finalçıların və qalibin ad və soyadları 2014-cü il 10 oktyabr tarixindən gec olmamaq şərti ilə Təşkilatçının (**www.ideacampaign.org**) veb səhifəsində, eləcə də KİV-lərdə elektron və çap formasında yerləşdiriləcək. Həmçinin, finalçıların və qalibin adları yazılı şəkildə onların təhsil aldıqları və Eko Gündəliklərdə qeyd etdikləri məktəblərə göndəriləcək.
15. Finalçıların və qalibin mükafatlandırma mərasimi 2014-cü ilin oktyabr və ya noyabr ayında Heydər Əliyev Mərkəzində keçiriləcək. Mərasimin keçirilmə vaxtı müsabiqənin finalçılarına və qalibinə ayrıca bildiriləcək; bu haqda müvafiq məlumatlar Təşkilatçının veb səhifəsində, KİV-lərdə elektron və çap formada yerləşdiriləcək; finalçıların və qalibin oxuduqları məktəblərə yazılı şəkildə göndəriləcəkdir.
16. Müsabiqənin Gəncə şəhərindən olan finalçılarının Bakıda keçiriləcək mükafatlandırma mərasimi ilə bağlı bütün xərcləri (gediş-gəliş daxil olmaqla) Təşkilatçı tərəfindən ödəniləcək.
17. Finalçılar Təşkilatçı tərəfindən Panasonic fotokameraları, qalib isə Panasonic videokamerası ilə mükafatlandırılacaqlar.
18. Milli müsabiqənin qalibinin Eko Gündəliyi PMCIS və YUNESKO-nun (BMT-nin Elm, Təhsil və Mədəniyyət təşkilatı) nümayəndələrindən ibarət olan Müsabiqənin Beynəlxalq Münsiflər Heyətinə göndəriləcək. Beynəlxalq Münsiflər Heyəti bütün milli müsabiqələrinin qaliblərinin işləri arasından ən yaxşı Eko Gündəlikləri seçəcək.
19. Əgər münsiflər heyəti tərəfindən seçilən beynəlxalq müsabiqə finalçılarından biri Azərbaycanda keçirilən milli müsabiqənin qalibi olarsa, o zaman, bu qalib beynəlxalq miqyasda keçirilən "Eko Rəsm Gündəliyi 2014"-ün qaydalarına uyğun şəkildə mükafatlandırılacaqdır.
20. İstənilən səbəbə görə hədiyyələrdən və/və ya mükafatlardan imtina edilməsinə görə təzminat ödənilmir.
21. Azərbaycanın qanunvericiliyinə əsasən zərurət olduqda, Təşkilatçı mükafat və hədiyyələrə görə olan vergiləri öz hesabına müvafiq dövlət büdcəsinə ödəyir.
22. Müsabiqədə iştirak edən iştirakçının doldurulmuş Eko Gündəliyi müəllimə qaytarması və müəllim tərəfindən Eko Gündəliyin Təşkilatçıya təhvil verilməsi iştirakçının (onların qanuni təmsilçilərinin) adının, soyadının, fotoşəklinin, müsahibələrinin və digər materiallarının Təşkilatçı və/və ya PMCİS tərəfindən (onların şərəf və ləyaqətlərini alçatmamaq şərti ilə) ictimaiyyətə açıqlanması və istifadə olunmasına razılıq verməsi deməkdir.

    Müsabiqənin iştirakçıları (onların qanuni təmsilçiləri) Müsabiqənin nəticələrinin təntənəli şəkildə elan olunmasında, hədiyyə və mükafatlarla təltif olunma prosesində, Təşkilatçı və PMCIS-in təşkil etdikləri ictimai tədbirlərin keçirilməsində, Müsabiqədə müsahibələrin verilməsində (o cümlədən, radio, televiziyada və digər KİV-lərdə), fotosessiyalarda iştirak etməkdə və onlarla bağlı şəkillərin və sujetlərin Müsabiqə ilə əlaqədar müxtəlif nümayişlərə təqdim olunmasına razı olduqlarını bildirirlər. Müsahibələrin, digər material və obyektlərin müəllif hüquqları yalnız Təşkilatçı və PMCIS-ə məxsusdur. Bu o deməkdir ki, iştirakçıların valideynləri onların qanuni təmsilçiləri kimi iştirakçıların Müsabiqəyə qoşulmasına icazə verməklə bu Qaydalarla tanış olduqlarını və razılıq verdiklərini bildirirlər. İştirakçılar (qanuni təmsilçilər) Təşkilatçı və PMCIS tərəfindən Müsabiqə ilə bağlı təşkil olunan press-konfranslarda, televiziya proqramlarında iştirak edəcəklərinə dair razılıq bildirirlər.
23. Təşkilatçı və PMCIS-in Müsabiqənin keçirilməsi, hədiyyələrin və mükafatların müəyyən edilməsi, iştirakçıların Müsabiqədə iştirak etməsi ilə əlaqədar məsələlər ilə bağlı qərarları bütün iştirakçılar üçün zəruridir.

**24.** Təşkilatçı, Heydər Əliyev Mərkəzi və PMCIS-in işçilərinə və onların ailə üzvlərinə Müsabiqədə iştirak etmək qadağandır.

**25.** Qaydalar Təşkilatçının (**www.ideacampaign.org**) veb səhifəsində yerləşdirilir. Təşkilatçı müsabiqə haqqında əlavə məlumatlar yerləşdirmək hüququna malikdir.

**IDEA-nın əlaqə vasitələri:**
Nizami küç. 1/3, "Sapphire Plaza"
Biznes Mərkəzi, 9-cu mərtəbə;
AZ1000, Bakı, Azərbaycan
Tel./faks: (+99412) 4976316
e-mail: info@ideacampaign.org